**AZƏRBAYCAN RESPUBLİKASININ AUDİTORLAR PALATASI**

# ƏMR

**30 may 2025-ci il** **10-1/3-1-71/2025**

## 2025-ci ildə auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün “Auditor xidmətinin həyata keçirilməsi” mövzusunda ixtisasartırma kursunun tədris proqramı və qrafiki barədə

Azərbaycan Respublikası Auditorlar Palatasının 2025-ci il üzrə iş planının 7.9-cu “Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün ixtisasartırma kurslarının tədris proqramının və qrafikinin hazırlanması” bəndinin icrası ilə əlaqədar Palatanın Kadr hazırlığı idarəsi (E.Behbudova) və Palatanın Şurası yanında Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə (İ.Süleyman) tərəfindən hazırlanmış auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün “Auditor xidmətinin həyata keçirilməsi” mövzusunda ixtisasartırma kursunun tədris proqramının və qrafikinin layihəsini nəzərdən keçirərək **əmr edirəm:**

1. Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün “Auditor xidmətinin həyata keçirilməsi” mövzusunda ixtisasartırma kursunun tədris proqramı və qrafiki təsdiq edilsin (əlavə olunur).

2. Kadr hazırlığı idarəsinə (E.Behbudova) tapşırılsın ki:

2.1. üç gün müddətində auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün “Auditor xidmətinin həyata keçirilməsi” mövzusunda ixtisasartırma kursunun tədris proqramının və qrafikinin kursu aparacaq müəllimlərə çatdırılması təmin edilsin;

2.2. cari ilin 01 iyun tarixinədək auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün “Auditor xidmətinin həyata keçirilməsi” mövzusunda ixtisasartırma kursunu tədris edən müəllimlərdən tədris materiallarının və ədəbiyyat siyahısının əldə olunması təmin edilsin.

3. Kadr hazırlığı idarəsinə (E.Behbudova) və Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitəyə (İ.Süleyman) tapşırılsın ki, tədris proqramına və qrafikinə uyğun olaraq kursların təşkili və yüksək səviyyədə keçirilməsi ilə əlaqədar zəruri işlərin vaxtında icrasını təmin etsinlər.

4. Maliyyə və texniki təminat idarəsinə (B.Abbasov) tapşırılsın ki, keçiriləcək kurslarla əlaqədar Auditorlar Palatasına müvafiq ödənişlərin edilməsi təmin edilsin.

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/rbG7eOsdfG0bNPOXNw2Jb8Y9TSag4YgPmqYwvvt3kDM%3D

5. Bu əmrin və “Auditor təşkilatlarının assistent və mütəxəssisləri üçün “Auditor xidmətinin həyata keçirilməsi” mövzusunda ixtisasartırma kursunun tədris proqramı və qrafikinin mətnləri Auditorlar Palatasının internet səhifəsində yerləşdirilsin.

**Palatanın sədri** **Vahid Novruzov**

Elektron Sənəd Dövriyyəsi Sistemi
Azərbaycan Respublikasının Auditorlar Palatası
İmzalayan şəxs: Vahid Novruzov / Rəhbərlik / Sədr

**Qeyd:** <<Elektron imza və elektron sənəd haqqında>> Azərbaycan Respublikası Qanununun 3-cü maddəsinə əsasən elektron imza əl imzası ilə bərabər hüquqi qüvvəyə malikdir. Elektron imza şəxsin kağız daşıyıcı üzərindəki möhürlə təsdiq edilmiş əl imzasına bərabər tutulur.

**Sənədin elektron yüklənmə ünvanı:**
https://verify2.esd.asan.gov.az/info/esign/rbG7eOsdfG0bNPOXNw2Jb8Y9TSag4YgPmqYwvvt3kDM%3D